# Yüz otuz il əvvəlki on beş mart günündə



Gülayə

1885-ci ilin 16 mart günündə - əziz Novruz bayramının lap astanasında türkçülüyümüzün fikir babalarından olan İsmayıl bəy Qaspıralı "Tərcüman" qəzeti üçün yazdığı bir məqaləsində Novruzdan il başı günü kimi bəhs edirdi.

İndi 2015-ci il mart ayının 14-dü. Bir gün də keçək və o dəyərli məqalənin 130 illik tarixini yenə də xoş, əziz Novruz günlərində xatırlayacağıq.

Novruz öncəsi bütün əziz adların, doğma ruhların xüsusi bir duyğu, qədirbilənliklə yad edilməsi ənənəsi var. Türk-islam aləminin bu əziz günlərində Türk xalqları arasında ayrılığa və parçalanmağa səbəb olan feodal kimlik və mədəniyyət anlayışının ortadan qalxacağına və modern Türk mədəniyyətinin bunların yerini alaraq yeni bir "Türklük" düşüncəsinin gəlişməsinə yol açacağına bütün səmimiyyəti və dıünyagörüşü ilə inanan İsmayıl bəy Qaspıralının coşqun fəaliyyətini də anmaq ədəbdəndi.

Modern Türk mədəniyyətinin təməlini qoymaq, yəni türk xalqlarını tək bir "millət" halına gətirmək İsmayıl bəyin ömrü boyu nail olmaq istədiyi ideal olmuşdur. Böyük düşüncə ustasının bu mücadiləsindən heyranlıqla bəhs edən görkəmli türk ədəbiyyatşünası Yavuz Akpinarın təəssüfü yüz-yüz doğru bir gerçəkliyi əks etdirir ki, İsmayıl bəyin bu düşüncələrini o zamanın məşhur rus yazıçı və siyasətçiləri türk xalqlarının yazıçı və siyasətçilərindən daha yaxşı və tez anlamış, bu düşüncələrin gələcəkdə onlar üçün doğuracağı problem və təhlükələri əvvəlcədən hiss etmişdilər.

Türk dünyasının öndərləri, fikir adamlar arasında xüsusi, sayılıb-seçilən yeri olan İsmayıl bəy Qaspıralının çox dəyərli, nadir məqalələrindən biri haqqında xüsusi bəhs etməyimizin əsas səbəbi şübhəsiz ki, məqalənin məhz Novruz günlərində, Novruz əhvali-ruhiyyəsində yazılması, bir növ, il başı hesabatı kimi araya-ərsəyə gəlməsindədir. Təbiətin oyanışı, təzələnməsi inancını özündə bütün incəliklərinə qədər əks etdirən bahar bayramı, Novruz günləri ərəfəsində İsmayıl bəy fərqindəydi ki, təbiətin oyanışı həm də könüllərin, düşüncələrin təzələnməsi, yeniləşməsi mərhələsidi. Bu məqamda duyan könüllər də təbiətin özü ilə həmahəng olur. Könüllərlə bərabər söz də, sözün ruhu da təzələnir. Təbiətin şeriyyəti söz-söz, misra-misra ədəbiyyata həkk olunur. Yəni, təbiət hadisəsi olan bahar, Novruz günlərinin hərarəti, ruh coşğunluğu, həm də ədəbiyyata, xüsusilə də şeirə, poeziyaya sirayət edir. Bu yöndən də böyük mübariz, milli düşüncə mücahidi olan İsmayıl bəy sözügedən məqaləsində yazırdı: "İstanbul qəzetlərini oxuyanlara məlumdur - şeir və ebyat (beytlər) çox nəşr edilir. Şair çox olan yerdə işlərin belə getməsi təbiidir; amma bu şairlərin məsləkləri, dünyagörüşləri necədir və istədikləri nədir?

Göyləri nura, işığa qərq edən, aydınladan, fərəhləndirən və ya gözlərdən yaş axıdan, ağladan nədir? Baharda, yaz başında bülbüllərin ötkün-ötkün cəh-cəh vurduran qüvvət və istəyin əsasında eşqin məhəbbətin dayanmsı şəksizdir. İstanbul şairlərinə bütün günlərdə, özəlliklə də Novruz, il başı gülərində alovlandırıb olgunluq, bilgəlik dəryasından incilər əldə edib qəzetlərə təqdim etdirən nədir?"

Cəmiyyətə və ədəbiyyat camesinə xitabən verdiyi sualın cavabını taba bilməməyindən məyus olduğunu bildirən İsmayıl bəy Qaspıralı onu da istisna etmirdi ki, şeir və mənzumələr ayıq başla, obyektiv şəklində gözdən keçirilərsə bu bülbüllərin nidası, cəh-cəh vurmaq istəyi, şövqü anlaşılmaz olaraq qalmaz.

Bu dəyərli məqalədə İsmayıl bəy böyük bir ziyalı, maarifçi olaraq zəmanəsində ədəbiyyatın məddahlıq, reallıqdan uzaq durumunu kəskin şəkildə pisləyir və yazırdı: "Yüz şeirdən əllisi səlahiyyətli kəsləri tərif və onlar üçün dua-səna, öygüdür. İyirmi beş faizi zəif, imkansız insanların imtiyaz sahibi olan insanlara acizanə şəkildə yarınmaqlarıdı. Yerdə qalan şeir və məzumələr isə əsasən gül və bülbül nağılından, əfsanəsindən bəhs etməkdə, bu ümidsiz münasibətin həsrət nəğməsini ötməkdədir.

İsmayıl bəy Qaspıralı bu məqalə boyunşca incə bir eypham və yönəldici ştrixləri ilə qələm əhlinə nədən və necə yazmağın uzağardıcı səmtini nəm-nişan verərək yazır: "Mədhiyyə yazmaq istiqamətində şeir yazacaq olsaydım bilirsinizmi kimi mədh edər bu mədhiyyə üçün kimsədən hədiyyə gözləməzdim: Anadolu türklərini mədh edər və yazaya qosqoca bir divan hasilə gətirərdim... Amma təəssüf ki, şair deyiləm və şeir yazmaq da əlimdən gəlmir. Bu Türklər ki, hər biri bur aslan kimidir, səbrləri zaman kimi bitib-tükənməz, sədaqətləri günəşin ziyası kimi ləkə qəbul etməz və əxlaqları almaz daşı kimi təmiz və sadədir, bunları heç olmasa ildə bir dəfə mədh etməyən şairin sözü, nidası ola bilməz. Yunan çalxışdı, gəl Anadolu, Qaradağ fikrə getdi, aman Anadolu, Belqrad çevrildi, yetiş Anadolu, Ərəbistan bulandı, gəl sakitlik yarat, Anadolu, para lazım; para topla gətir, Anadolu, Rumelində yol yapılır; yardımçı ol, Anadolu və s. və s... Gəl, baba Anadolu, gəl, qəhrəman Anadolu deyilir, amma qarşılığında şairlər ildə beş sətir təşəkkür yazmazlar, ayıb deyilmi?"

Bu, ədəbiyyatın başlıca məramının vətənə, millətə xidmət işi olduğunu israrla ortaya qoyan alovlu bir mücadilə yolçusunun dünyagörüş və ədəbiyyata münasibətini ortaya qoyan proqram xarakterli bir məqalədi.

İsmayıl bəy bu dəyərli məqaləsində hər bir türk övladından cəsur, yenilməz aslan kimi bəhs edir. Eyni zamanda bu igid, yenilməz övladların ruhunu saran mələk təbiətindən xüsusi bir qürurla bəhs edir və gül-bülbül aşiqliyindən bəhs edən yazarları heç olmasa ildə bir-iki sətir olmaqsa da onların şücaətindən, qəhrəmanlıq əzmindən yazmağa çağırırdı.

Bütün bu deyilənlərin önündə güclü, həqiqətə xidmət edəsi tənqidin olması gerçəkliyini İsmayıl bəy "Mətbuati-Osmaniyyə" adlı məqaləsində daha aydın və israrlı şəkildə ortaya qoyurdu. O, Türkiyədə yeni ruhlu, çağdaş bir ədəbiyyat gəlişmələrinin özünü büruzə verməyə başladığının da fərqindəydi. Buna sevinirdi də! Dünya ədəbiyyatının sayılıb-seçilən əsərlərinin türk dilinə tərcümə edilməyə başlamasını mütərəqqi bir hal kimi qutlayırdı. Şekspir, Gete, Şiller, Bayrom, Hüqo, Puşkin, Lermantov və Tolstoyun türk dilinə çevrilərək geniş şəkildə yayılmasını təqdir edirdi. Ancaq məhz həmin tərəqqinin iç dünyasında belə, bütün irəliləyişləri ilə bir arada ədəbiyyatın mizansız, tənqidsiz qalmasından yana çox əndişələndiyini bildirirdi. O, Osmanlı ədəbi mühitində ədəbi tənqidə yer olmamasını bütün halları ilə pisləyir, bu halla heç cür barışmırdı. Yazırdı ki, bez, ipək bazarına arşın, çörək bazarına olxov nə qədər lazımdırsa, ədəbi aləmə də ölçü meyarı olan tənqid bir o qədər lazımdır. "Ədəbiyyat mənəviyyat qidamızdır. O, madiyyatdan, qidadan daha mübarək bir sahədir. Ona görə də bu sahədə xüsusi bir mizan-tərəziyə, yəni ədəbi tənqidə xüsusi bir ehtiyac var. Hər şeyi görə bilmədiyimiz, hər şeyi yeyə bilmədiyimiz kimi hər şeyi oxumaq da mümkün olmur. Çuxa və bezləri seçim edib aldığımız kimi, alınacaq və oxunacaq əsərləri də gözdən keçirmək, dəyərini verə bilmək lazımdır..."

İsmayıl bəy Qaspıralı müsəlman ölkələri ədəbiyyatında obyektiv tənqidin çatışamadığının dərin təəssüfünü yaşayırdı. Təəssüf edirdi ki, islam ədəbi mühitində tənqid mədhiyyə ilə əvəzlənib, bu söz dillərdən və lüğətlərdən silinib getməkdədir: "Tənqidin uca məqamına aslan yuvasına girmiş tülkü kimi qeybət yerləşmişdir. Bu hal məğribdən ta Sava adalarına qədər hökm sürməkdədir. Fəqət, bir gün aslan yuvasını, tənqid məqamını bulması gərəkdir".

İ.B.Qaspralı zamanında çox vacib bir məsələni də ədəbi camelərin qarşısında qaldırmaqda idi: "Tənqid lazımdır, amma, tənqidçi kim olacaq? Bu, böylə bir işdir ki, ocaqçılıqdan və gəmi kömürçülüyündən ağır bir işdir... Roman çıxdı, komediya oynandı... Müəllif nə deyir? Fikri, düşüncəli nədir? İctimai-siyasi anlamda ərz etdiyi məslək, yürütdüyü siyasət, ifadə etdiyi baxış nədir?

Bütün bu işləri çözmək tənqidin və tənqidçinin boynuna düşür. Təkrar edirəm, tənqid zəhmətli və ağır işdir, lakin lazımlı və vacidir. Ədəbi məhsulu saf-çürük edəcək meyar tənqiddir... Tənqidin geri çəkilməsindən, meydanda olmamasındandır ki, bu gün alınan kitabın adına və ilk səhifələrinə baxılıb da qapanır. Çünki adı ilə mahiyyəti arasında Balkan dağları var... Roman nədir, hekayə nədir, filan romanda yazıçı mətləbi nədir, filan oyunudu mətləbi nədir-bütün bunlaıı açacaq, cavablandıracaq vasitə təniddir. İnsanların ümumi dünyagörüşü, davranışı tənqid süzgəcindən keçirilməsi adət halını alsa daha xoş olar..."

Həyatın bütün sahələrində yaşanan problemlərlə bağlı bütün məsələlərdə türk insanının, Türk qövmünün yanında olan İsmayıl bəy Qaspıralının görüşləri, ədəbi baxışları böyük ölçüdə "Tənzimatçıların, özəlliklə də Əhməd Midhət əfəndinn ədəbiyyat anlayışı ilə paralel şəkildə inkişaf edir. Hər ikisi də ədəniyyatın xalqa yararlı olmasını təməl prinsipi kimi qəbul etmişdir".

Böyük düşüncə sahibi olan İsmayıl bəy ədəbiyyatın xalqın tarixi inkişafındakı yerini yaxşı bilirdi və ona görə də bu sahənin daha çox çağdaşlaşması, milli dəyərlərə sahib çıxması yönündə dönməz mücadilə aparırdı. Onun üçün ədəbiyyat millətə, topluma yol göstərməyin başlıca vasitəsi idi. O, ədəbiyyatı ağıl, fəhm, bilik, anlayış xəzinəsi kimi cəmiyyəyə təqdim edirdi. Qətiyyətlə bildirirdi ki, belə bir xəzinəyə sahib çıxmaq üçün yorulmadan, ardıcıl olaraq çaba göstərmək lazımdır. Ulusal ədəbiyyata böyük əhəmiyyət verdiyindən idi ki, İsmayıl bəy Qaspıralı bu yöndən dünya ədəbiyyatının ən önəmli örnəklərindən bəhrələnməyi durmadan təbliğ edirdi.

Yüz otuz il əvvəlin güllü bir yaz ayında, Novruz bayramının müsəlman dünyasının mübarək qapılarını döydüyü bir gündə-martın 15-də İsmayıl bəy Qaspıralı öz əbədiyaşar və əbədibahar ədəbiyyat düşüncələrini yeni məqaləsinə köçürdükcə fərqindəydi ki, yalnız ədəbiyyat milli dəyərləri zamanın burulğanlarından sağ-salamat çıxara bilər. Ona görə də hər kəsin xüsusi bir şadlıq, ruh xoşluğu ilə bayram binəgüzarlığı etdiyi bir vaxtda o böyük şəxsiyyət milləti millət edəcək ədəbiyyat haqqında düşünməkdəydi. İsmayıl bəy təkcə öz zamanının, gününün Novruz şadyanalığı yaşamırdı, müstəqil, azad Türk Cümhuriyyətlərini bugünkü yüksəliş və milli müstəqillik gününə yetirəcək dəyərlər, eləcə də böyük ədəbiyyat haqqında mülahizələrini orta qoyurdu.

Bu yöndən Novruz bayramı öz gəlişiylə həm də xalqı, milləti yolunda fədakarlıqla çaba göstərmiş insanları, o cümlədən İsmayıl bəy Qaspıralını göz önünə gətirir.